AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**ELAN**

**Özəl məktəbəqədər təhsil müəssisələri üçün qrant müsabiqəsi**

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda məktəbəqədər təhsilə cəlb edilmiş uşaqların 1-5 yaşlılara nisbətinin 50 faizə çatdırılması nəzərdə tutulmuşdur. Strategiyanın hədəfinə nail olunması üçün digər tədbirlərlə yanaşı, Elm və Təhsil Nazirliyi tərəfindən özəl məktəbəqədər təhsil müəssisələri üçün qrant müsabiqəsi (bundan sonra: qrant müsabiqəsi) elan edilir.

Qrant müsabiqəsinin məqsədi 2024–2025-ci tədris ilində dövlət məktəbəqədər təhsil müəssisələrinə qəbul oluna bilməyən uşaqları özəl məktəbəqədər təhsil müəssisələrində (bundan sonra: iştirakçı) boş qalan yerlərə cəlb etmək və təhsil haqqının bir hissəsini qrant vasitəsilə maliyyələşdirməkdir.

**Qrant müsabiqəsinin büdcəsi 3 750 000 (üç milyon yeddi yüz əlli min) AZN təşkil edir.** Müsabiqənin büdcəsi dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına artırıla bilər.

**Qrant müsabiqəsində iştirak tələbləri:**

- iştirakçı "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsil fəaliyyət növünün həyata keçirilməsi lisenziyasına malik olan, yaxud bu lisenziyanın alınması üçün müraciət etmiş özəl məktəbəqədər təhsil müəssisəsi olmalıdır;
- iştirakçı ümumi uşaq tutumunun ən azı 20%-ni qrant müsabiqəsinə boş yer kimi təqdim edən və bir uşaq üçün aylıq təhsil haqqı 500 (beş yüz) manatı keçməyən özəl məktəbəqədər təhsil müəssisəsi olmalıdır.

**Qrant müsabiqəsində iştirak sənədləri:**

- iştirakçının özü tərəfindən rəsmi blankda hazırlanmış və müəssisədə təhsil alan uşaqların ümumi sayı, qrant müsabiqəsi üçün təklif olunan boş yerlərin sayı, təhsil haqqı göstərilməklə maraq ifadəsi məktubunun əslinin elektron surəti (PDF);
- "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məktəbəqədər təhsil fəaliyyətinin həyata keçirilməsi lisenziyasının əslinin elektron surəti (PDF) və ya bu lisenziyanın alınması üçün edilmiş müraciətin əslinin elektron surəti (PDF);
- iştirakçının dövlət qeydiyyatı haqqında şəhadətnamə (dövlət reyestrindən çıxarış) və nizamnaməsinin əslinin elektron surəti (PDF);
- iştirakçının Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən verilmiş arayışın əslinin elektron surəti (PDF);
- müəssisənin ümumi uşaq tutumu göstərilməklə maddi-texniki təchizatının və sanitariya-gigiyena vəziyyətinin müvafiq norma və normativlərə uyğunluğu, eləcə də müvafiq tələblərə cavab verən işçi qüvvəsinin olması barədə iştirakçının özü tərəfindən hazırlanmış, həmçinin təsdiq edilmiş arayışın əslinin elektron surəti (PDF);
- iştirakçının VÖEN-i və ona bağlı bank rekvizitlərinin əslinin elektron surəti (PDF);
- iştirakçının qanuni nümayəndəsinin şəxsiyyət vəsiqəsinin əslinin elektron surəti (PDF);
- iştirakçının qrant müsabiqəsinə təklif etdiyi boş yerlərə qəbul edəcəyi uşaqlara məktəbəqədər təhsil xidmətlərinin göstərilməsi üçün Xərclər Smetası.

**Qrant müsabiqəsi aşağıdakı mərhələləri əhatə edir:**

- müraciət mərhələsi;
- qrant müsabiqəsində iştirak edən məktəbəqədər təhsil müəssisələrinə uşaqların onlayn qeydiyyatı mərhələsi (bundan sonra: onlayn qeydiyyat mərhələsi);
- qrantların ayrılması mərhələsi.

**Müraciət mərhələsi:**

- bu mərhələdə qrant müsabiqəsinin iştirakçılarına və iştirak sənədlərinə verilən tələblər yoxlanılır. Bütün sənədləri tam və düzgün təqdim edən iştirakçılar onlayn qeydiyyat mərhələsinə keçir;
- hər hansı sənədi təqdim etməyən iştirakçıya qısa müddət ərzində çatışmazlıqların aradan qaldırılması üçün müddət verilir. İştirakçı bu müddət ərzində iştirak sənədlərindəki çatışmazlıqları tam aradan qaldırarsa, onlayn qeydiyyat mərhələsinə keçir, əks halda isə qrant müsabiqəsində iştirakı dayandırılır.

**Onlayn qeydiyyat mərhələsi:**

- bu mərhələdə iştirakçının boş yerləri və təhsil haqqı barədə məlumatlar www.bq.edu.az (Məktəbəqədər Təhsil Müəssisələrinə Elektron Sənəd Qəbulu Sistemi) portalına daxil edilir;
- dövlət məktəbəqədər təhsil müəssisələrinə qəbul bitdikdən sonra www.bq.edu.az portalında gözləmə siyahısında olan uşaqların özəl məktəbəqədər təhsil müəssisələrinə qeydiyyatı açılır;
- qeydiyyat əsasında 1-2 və 2-3 yaşlı uşaqlardan ibarət qruplarda 15-dən, 3-4 və 4-5 yaşlı qruplarda 20-dən, 1-3 yaş arasında müxtəlifyaşlı uşaqlardan ibarət qruplarda 10-dan, 3-5 yaş arasında müxtəlifyaşlı uşaqlardan ibarət qruplarda 15-dən çox uşaq olmamaq şərti ilə qruplar formalaşdırılır;
- onlayn qeydiyyat mərhələsi formalaşmış qruplar üzrə ümumi uşaq sayı 1 500 (min beş yüz) nəfərə çatanadək davam edir.

**Qrantların ayrılması mərhələsi:**

- bu mərhələdə www.bq.edu.az portalı üzərindən özəl məktəbəqədər təhsil müəssisəsinə qəbul edilmiş uşaqların valideynləri və ya digər qanuni nümayəndələri (yaxud sponsorları) ilə iştirakçı arasında 10 (on) iş günü ərzində müqavilə bağlanılır. Bu zaman məktəbəqədər təhsil xidmətlərinin müddəti maksimum 10 (on) ay, 1 (bir) uşağa düşən aylıq təhsil haqqı isə 500 (beş yüz) manatı keçməməlidir;
- bağlanılmış müqavilələr üzrə hər uşağa düşən aylıq təhsil haqqının ən çoxu 250 (iki yüz əlli) manat məbləğində olan hissəsinin maliyyələşdirilməsi üçün iştirakçıya Elm və Təhsil Nazirliyi tərəfindən qrant ayrılır;

— hər hansı uşağın valideyni və ya digər qanuni nümayəndəsi ilə iştirakçı arasında 10 (on) iş günü ərzində müqavilə bağlanılmazsa, həmin yer www.bq.edu.az portalı üzərindən digər uşaqlar üçün açıq elan edilir.

**Qrant müsabiqəsinə müraciət üçün son tarix:** 16.08.2024-cü il.

**Sənədlərin qəbulu üçün elektron poçt ünvanı:** preschool.grants@edu.gov.az

**Ünvan:** Bakı şəhəri, Xətai prospekti 49.